“Müəllimlərin potensialının artırılması və Azərbaycan Respublikasının Təhsil Nazirliyi üçün təhsil informasiya sisteminin yaradılması” texniki yardım (qrant) layihəsi çərçivəsində təhvil-təslim mərasimi baş tutub. Layihə Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) maliyyə dəstəyi ilə həyata keçirilib.

Tədbirdə elm və təhsil nazirinin müavini Həsən Həsənli, Koreya Respublikasının ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri Li İn Yonq və digər rəsmilər iştirak ediblər.

Tədbirdə çıxış edən nazir müavini Həsən Həsənli Azərbaycan və Koreya arasında təhsil sahəsində əməkdaşlığın dinamik inkişafını qeyd edərək bu istiqamətdə təcrübə mübadiləsinin aparılması baxımından layihənin əhəmiyyətini vurğulayıb.

Müvafiq layihə çərçivəsində Koreya təcrübəsi üzrə Azərbaycan dilində müəllimlərin ixtisasartırma proqramının ilk milli elektron məzmununun hazırlandığını qeyd edən nazir müavini öyrədici təhsil resurslarının hazırlanmasının zəruriliyini bildirib.

Daha sonra çıxış edən səfir Li İn Yonq qeyd edib ki, adıçəkilən texniki yardım layihəsi Koreya ilə Azərbaycan arasında təhsil sahəsində uğurlu əməkdaşlığı əks etdirir. Səfir Koreya Respublikasının təhsil sahəsində ölkəmizlə mövcud əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu vurğulayıb.

Qeyd edək ki, layihənin məqsədi təhsil işçilərinin peşəkar inkişafına dəstək üçün elektron öyrənmə portalının yaradılması, videoçəkilişlər üçün studiyanın qurulması, Azərbaycan dilində milli elektron məzmunların yaradılması mexanizminin formalaşması olub.